

İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 15 fevral 2016-cı il tarixindən etibarən fəaliyyətə başlayıb. Agentlik səhiyyə sahəsinə ayrılan vəsaitlərin daha səmərəli istifadə edilməsi ilə əhalinin sağlamlığının yaxşılaşdırılmasına xidmət edir.


İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi
@itsgovaz
its.gov.az
www.its.gov.az
Bakı şəh., Z.Əliyeva küç. 93
+994 12 310 07 70



İCBARİ TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ




# Süd vəzisinin xərçəngi

ilə mübarizənin əsas yolu erkən diaqnostikadır!

## Süd vəzisinin xərçəngi ilə mübarizənin əsas yolu erkən diaqnostikadır!

Süd vəziləri qadın cinsiyyət üzvləri ilə sıx əlaqəli olduğuna görə illər ərzində müəyyən dəyişikliklərə məruz qalır. Hər qadın həmin dəyişikliklərə diqqət etməli və hər hansı dəyişiklik olduqda dəqiq diaqnozun qoyulması üçün həkimə müraciət etməlidir.

## Süd vəzisində bu dəyişikliklər normaldır.

Süd vəzilərinin inkişafı 9-11 yaşlarından başlayır, 17 yaşında başa çatır. Həmin dövrdə süd vəzisinin giləsi və dairəciyi çəhrayı rəngdə, qabarıq, yaxud incə olur. Qızlarda qaşıntılar və sancmalar müşahidə oluna bilər.

Hamiləlik zamanı da süd vəzilərində müəyyən dəyişikliklər başlayır. Məsələn, bərkimə, şişkinlik, sancmalar, ağrılar olur. Süd vəzisinin giləsinin və dairəciyinin rəngi dəyişərək tündləşir. Doğuşdan sonra isə süd vəziləri, süd ifraz etməyə başladığından və mütəmadi olaraq süd ilə dolduğundan onların ölçüsü böyüyür. Gilədə, adətən, ağrılar, çatlar yaranır, lakin onlar müəyyən vaxtdan sonra keçir. Əmizdirmə bitdikdən sonra süd vəziləri əvvəlki formasına qayıda və yaxud qismən dəyişə bilər.

Menopauza (aybaşının kəsilməsi) dövründə süd vəzlərinin ölçüsü, forması, bərkliyi və ya yumşaqlığı dəyişə bilər, ağrılar ola bilər.

## Unutmayın ki, digər xərçəng növləri kimi süd vəzisinin xərçənginin müalicəsində də müvəffəqiyyətin əsas şərti erkən diaqnostikadır.

Süd vəzisinin xərçənginin erkən diaqnostikası üçün istifadə olunan əsas metodlar ultrasəs müayinəsi və mammoqrafiyadır. 20 yaşdan yuxarı qadınlara iki ildən bir ixtisaslı həkim tərəfindən müayinə olunmaq, 30 yaşdan yuxarı qadınlara isə ildə bir dəfə mammoqrafiya müayinəsindən keçmək məsləhət görülür. Mammoqrafiya müayinəsi zamanı alınan radiasiya şüası digər rentgenoloji müayinələr zamanı alınan radiasiya şüasından daha aşağı dozadadır.

## Şübhəli düyünün dəqiq diaqnozu biopsiya yolu ilə qoyulur.

Biopsiya - süd vəzisi toxumasından nümunənin alınması, hazırlanmış preparatın mikroskop altında müayinəsidir. Bu yolla əldə edilən diaqnoz histopatoloji diaqnozdur və süd vəzisi xərçənginin dəqiq diaqnozunun qoyulmasının əsas üsullarından biridir.

**QEYD: Bu məlumatlar müalicə həkiminizin məsləhətlərini əvəz etmir!**





## Aşağıdakı profilaktik tədbirləri görün:

* İldə bir dəfə ailə həkiminizə müraciət edin
* Artıq çəkidən azad olun
* Mütəmadi idmanla məşğul olun
* Sağlam qidalanın
* Normal yuxu rejiminə riayət edin
* Spirtli içkilərə və siqaretə aludə olmayın
* Tibbi zərurət olmazsa, radiasiyaya səbəb olan rentgen və kompüter tomoqrafiyasından uzaq olun
* Həkim məsləhəti olmadan hormonal dərmanlardan və yaxud kontraseptivlərdən (hamiləlik əleyhinə həblər) istifadə etməyin
* Övladınızı ana südü ilə qidalandırın
* Abort etdirməyin

**Erkən aşkarlanma və erkən müdaxilə sağlamlığın təminatıdır!**

## Süd vəzisinin xərçəngi nədir?

Süd vəzisinin xərçəngi xərçəng xəstəliyinin bir növüdür. Dünyada hər 8 qadından biri bu xəstəlikdən əziyyət çəkir. Azərbaycanda yayılma dərəcəsinə görə xərçəng xəstəlikləri arasında ikinci yeri tutur. Süd vəzisinin xərçənginin yaranmasına əksər hallarda irsi və yaş faktoru (40 yaşdan yuxarı), menstruasiyanın (aybaşı) 12 yaşdan tez başlaması səbəb olur.

## Hansı dəyişikliklər süd vəzisinin xərçənginin ilkin əlamətləri ola bilər?

* Süd vəzisində və ya qoltuqaltı nahiyədə ələgələn yumşaq yaxud bərkimiş yeni törəmə
* Süd vəzisinin ölçüsündə və formasında dəyişiklik
* Süd vəzisi nahiyəsində qızartı, şişkinlik, istilik
* Süd vəzisinin qıcıqlanması, dərisinin portağal qabığına bənzər görünüş alması
* Süd vəzisinin giləsi və yaxud dərisinin hər hansı bir nöqtədə içəriyə doğru çəkilməsi
* Giləsi də daxil olmaqla, süd vəzisində ağrılar
* Giləsində və ətrafında yara, qaşınma, səpgi
* Süd vəzisindən axıntı (ana südündən başqa)

**Süd vəzisinin müayinəsi zamanı yuxarıda sadalanan dəyişikliklərdən hər hansı birisini müşahidə etsəniz, təcili olaraq həkim-mammoloqa müraciət edin!**

## Süd vəzilərinin müayinə üsulları

### 1-ci üsul:

Güzgü qarşısında çılpaq, əllər beldə, ayaqüstə, yaxud oturaraq aşağıdakılara fikir verin:

* Süd vəzilərinizin formasına, ölçüsünə, bir-birinə oxşarlığına, dartılmalarına
* Süd vəzilərinizi əliniz ilə yuxarı qaldırıb, onların eyni səviyyədə olmasına
* Əllərinizi başınızın üstünə qaldıraraq, süd vəzilərinizdə və qoltuqaltı nahiyənizdə hər hansı dəyişikliklərin olub-olmamasına

### 2-ci üsul:

Döşəmə üzərində arxası üstə uzanın. Bu zaman süd vəziniz yayılır və dəyişikliklər asanlıqla hiss edilir.

Şəhadət, orta və adsız barmaqlarınızın içəri səthindən istifadə edərək qoltuqaltınızdan başlayaraq, şəkildə göründüyü kimi eyni nöqtədən dairəvi hərəkətlər ilə aşağı xətt üzrə yuxarı qalxın. Paralel xətlər üzrə dairəvi hərəkətlər edərək davam edin. Barmaqlarınızı eyni nöqtədə hərəkət etdirərək 3 fərqli təzyiqlə basın.

### 3-cü üsul:

Hamamda süd vəzinizi və barmaqlarınızı sabunlayın, tələsmədən barmaqlarınızı qoltuqaltı nahiyənizdən sürüşdürərək süd vəzinizi yoxlayın.




**Süd vəzisi xərçənginin qarşısını almaq mümkündür. Bunun üçün hər ay özünüzü müayinə etməlisiniz!**